

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 7 (23.169)

*11 yanvar 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 10-da Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi, döyüş texnikası və silah-sursatla tanış olub.

Dövlətimizin başçısına "Savalan" tipli müasir sərhəd gözətçi gəmisinin layihəsi, həmçinin "Milli Boat" proqramı çərçivəsində yeni itisürətli üzmə vasitələri, yedək gəmiləri təqdim olunub.

Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin tikintisini əks etdirən videoçarxa baxıb, onların texniki göstəriciləri ilə tanış olub.

Sonra Prezident İlham Əliyevə yeni xüsusi təyinatlı döyüş texnikası və silah-sursat, pilotsuz uçan aparatlar, tank əleyhinə idarə olunan raketlər, lazer hədəf tuşlama sistemləri, termal müşahidə cihazları təqdim olunub. Bu döyüş texnikası və silah-sursat dünyanın ən aparıcı ölkələrinin məhsullarıdır.

Dövlətimizin başçısına mobil qida maşınlarının istehsalı, sərhəd gözətçi katerlərin təmiri üçün nəzərdə tutulmuş texnika nümayiş olunub.

## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib




Dünən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində 2018-ci ildə polis orqanlarının cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələri, 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

İclası Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov açaraq müzakirə olunan məsələ barədə məruzə etmişdir. Nazir bildirmişdir ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"...Hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının və bu sahədə çalışanların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri də diqqət mərkəzində olmuş, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası yenidən qurulmuşdur.***

***Daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılmışdır. Təhsil müəssisəsi üçün yeni məktəb binasının tikintisi hazırda davam etdirilir.***

***Əhali arasında hüquq maarifi və profilaktiki tədbirlərin gücləndirilməsinin nəticəsidir ki, cinayətkarlıq üzrə göstəricilərin aşağı səviyyədə olması qorunub saxlanılmışdır".***

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla həyata keçirilən siyasi strategiya nəticəsində muxtar respublikada dayanıqlı xarakter almış ictimai-siyasi sabitlik daxili işlər orqanlarının fəaliyyətinə əlverişli şərait yaratmaqla yanaşı daxili işlər orqanlarının üzərinə daha ciddi məsuliyyət qoymuşdur.

Əməliyyat şəraitinin yenidən qurulması və mövcud olan çatışmazlıqların aradan qaldırılması istiqamətində verilən tapşırıqların, eləcə də şəxsi heyətin gərgin əməyinin nəticəsidir ki, 2018-ci ildə Daxili İşlər Nazirliyi və prokurorluq tərəfindən qeydə alınmış cinayət hadisələrinin açılması, cinayətlərin törədilməsində təqsirli bilinərək axtarışı elan olunmuş şəxslərin tutulması, eləcə də cinayət işləri üzrə dəymiş maddi ziyanın ödənilməsi 100 faiz təmin edilmiş, insan alverinə qarşı mübarizə sahəsində heç bir cinayət faktı qeydə alınmamışdır.

Vurğulanmışdır ki, qanunsuz saxlanılan silahların yığılması istiqamətində də ardıcıl həyata keçirilən profilaktik maarifləndirmə tədbirlərinin nəticəsində vətəndaşlar tərəfindən 255 ədəd müxtəlif növ silah və xeyli sayda döyüş sursatı təhvil verilmişdir. Bu da ötən illərin göstəricilərini üstələməklə yanaşı nazirliyin ictimaiyyət arasında nüfuzunun yüksəlməsinin nəticəsidir.

"Ötən il muxtar respublikada kriminogen vəziyyətə təsir edən amillər müəyyən edilərək qabaqlayıcı tədbirlərin görülməsi istiqamətində 5 kollegiya və 8 əməliyyat müşavirəsi keçirilmiş, qəbul edilmiş qərarlar icraya yönəldilmişdir", – deyən nazir diqqətə çatdırmışdır ki, 2018-ci ildə, ümumilikdə, 1702 vətəndaşın qəbul edilərək müraciətlərinin əksəriyyəti həll olunmuşdur. Polis orqanları tərəfindən vətəndaşların qəbulu və onların müraciətlərinə baxılması işinə bundan sonra da böyük həssaslıqla yanaşılmalı, müraciət edən hər bir vətəndaşın qəbul edilib şikayətlərinin hüquqi müstəvidə həll olunması bundan sonra da diqqət mərkəzində saxlanılmalıdır.

Vurğulanmışdır ki, yol infrastrukturunun inkişafı sahəsində muxtar respublikada həyata keçirilən tədbirlər, müasir standartlara cavab verən asfalt yol örtüyünün çəkilməsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə texniki sistemlərin tətbiqi, istismara yararsız nəqliyyat vasitələrinin çıxdaş edilməsi və maarifləndirmə tədbirlərinin genişləndirilməsi nəticəsində qəzaların sayı 2017-ci illə müqayisədə 54 faiz azalmışdır.

Nazirliyin səyyari xidmətinin fəaliyyəti barədə də danışan Fazil Ələkbərov demişdir ki, bu xidmət vətəndaşlar arasında böyük məmnunluq hissi yaradaraq daxili işlər orqanlarının nüfuzunu daha da möhkəmləndirmişdir. Lakin aid strukturlar bununla kifayətlənməməli, əldə olunmuş nəticələri inkişaf etdirməklə vətəndaş məmnunluğunun təmin olunması istiqamətində aparılan işləri şəffaflıq prinsipi əsasında davam etdirməlidirlər.

Nazir qeyd etmişdir ki, biometrik şəxsiyyət vəsiqələrinə keçid prosesi ölkəmizin inkişaf etmiş dövlətlər sırasında irəliləməsinin bariz nümunəsidir. Muxtar respublikamızda biometrik şəxsiyyət vəsiqələrinin verilməsi ilə bağlı bütün texniki vasitələr quraşdırılaraq istifadəyə verilmişdir.

Bildirilmişdir ki, 2018-ci ildə xidmətdə fərqlənən əməkdaşlardan 1302 nəfərin mükafatlandırılması son dövrlər şəxsi heyət arasında nizam-intizamın və mənəvi-psixoloji vəziyyətin yüksəlməsinin göstəricisidir.

Çıxışının sonunda nazir əminliyini bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmini sahəsində Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən qarşıya qoyulan vəzifələri, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqları layiqincə yerinə yetirəcək, sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması təmin olunacaq. Naxçıvanın cinayətsiz region prinsipi qorunaraq əldə olunmuş nəticələr daha da inkişaf etdiriləcəkdir.

Sonra məruzə ətrafında müzakirələrdə nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidovun, İstintaq və təhqiqat şöbəsinin rəisi, polis polkovniki Hikmət Əliyevin, Şərur Rayon Polis Şöbəsinin rəisi, polis mayoru Nəriman İbrahimovun, Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının komandiri, polkovnik Səlim Niftəliyevin çıxışları dinlənilmişdir.

Çıxışlarda bildirilmişdir ki, həyata keçirilən köklü islahatlar və məqsədyönlü layihələr 2018-ci il ərzində uğurla davam etdirilmişdir. Bundan sonra da cinayətkarlıqla mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, dövlətin və vətəndaşların qanuni mənafelərinin qorunması, eləcə də qanunvericiliklə müəyyən edilmiş vəzifələr layiqincə yerinə yetiriləcək, əməliyyat şəraiti nəzarətdə saxlanılacaq.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov yekun vurmuşdur.



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında keçirilən yığıncaqda Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova geniş məruzə ilə çıxış edərək bildirib ki, muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirlər 2018-ci ildə də davam etdirilib, Müvəkkil bu sahədə fəaliyyətini daxil olan müraciətlərin araşdırılması, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müvafiq tədbirlərin həyata keçirilməsi, preventiv mexanizm funksiyasının icrası, dövlət orqanları, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirib.

Bəhs olunan dövrdə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 70 müraciətin daxil olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, daxil olan müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılıb və cavablandırılıb. Müvəkkil insan hüquq və azadlıqlarının müdafiəsində mühüm əhəmiyyət kəsb edən hüquqi maarifləndirmə sahəsində fəaliyyətini ötən il də uğurla davam etdirib, bu istiqamətdə 74 tədbir keçirib.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada təbliği və öyrənilməsi həyata keçirilib, proqramın icrası təmin olunub.

Qeyd edilib ki, 2018-ci ildə, ümumilikdə, 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 80 başçəkmə həyata keçirilib, preventiv mexanizm və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə təşkil olunan maarifləndirmə tədbirlərində 1300 nəfər iştirak edib.

Müvəkkilin 2018-ci ildə fəaliyyəti ilə bağlı təsisatın rəsmi internet saytı və kütləvi informasiya vasitələrində 124, həmçinin muxtar respublikanın müasir inkişafı, tarixi-mədəni irsi, turizm potensialının təbliği ilə bağlı 128 informasiya materialı Müvəkkilin rəsmi internet səhifəsində işıqlandırılıb.

Ülkər Bayramova qarşıda duran vəzifələrdən danışaraq qeyd edib ki, 2019-cu ildə də Müvəkkil təsisatı müvafiq sahələr üzrə fəaliyyətini davam etdirərək dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq nəticəsində əldə edilən müsbət təcrübənin daha da inkişaf etdirilməsi və mütəmadi təkmilləşdirilməsi istiqamətində səylərini artırmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində 2018-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirəni giriş sözü ilə xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev açaraq məruzə edib.

Bildirilib ki, Dövlət Miqrasiya Xidməti tərəfindən 2018-ci il ərzində də qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri həyata keçirilib, inzibati qanunvericiliyin tələblərini pozan 267 əcnəbi aşkarlanıb. Onlar haqqında qanunamüvafiq tədbirlər görülüb.

Qeyd edilib ki, hesabat dövründə əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı xidmətə 967, daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı 5, müvəqqəti yaşama icazəsinin yenidən rəsmiləşdirilməsi ilə bağlı 4, əcnəbilərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin verilməsi ilə bağlı 39, Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı 1, vətəndaşlıqdan çıxma ilə bağlı 1, digər ölkənin vətəndaşlığını qəbul etmə ilə bağlı 1, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 357 müraciət daxil olub. Həmin müraciətlərin icrası mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilib. İl ərzində qanunla müəyyən edilmiş əsaslarla müvəqqəti yaşama icazəsinin ləğv olunması ilə bağlı 18, iş icazəsinin ləğv edilməsi ilə bağlı isə 7 müraciət daxil olub və icrası təmin edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, qarşıda duran vəzifələrlə bağlı struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində 2018-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.*

Kollegiyada Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov məruzə ilə çıxış edərək bildirib ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə təhsil müəssisələrinin maddi-tədris bazasının daha da möhkəmləndirilməsi, tədris prosesinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər ötən il də davam etdirilib. 2018-ci il ərzində Naxçıvan şəhərində 6 nömrəli, Şərur rayonunda İbadulla, Ərəbyengicə, Kosacan, Babək rayonunda Aşağı Buzqov, Yuxarı Buzqov, Culfa rayonunda Dizə, Qazançı kənd tam orta məktəbləri, Ordubad Rayon Təhsil Şöbəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir.

Vurğulanıb ki, 2018-ci ildən etibarən ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təminatı müsabiqə yolu ilə aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqədə yüksək nəticə göstərən 44 müəllim,13 psixoloq, 7 uşaq birliyi təşkilatı rəhbəri, 1 kitabxana müdiri, 1 tərbiyəçi və 7 laborant işlə təmin olunub. 29 dekabr 2018-ci il tarixdə artıq üçüncü dəfə həyata keçirilən işə qəbul imtahanlarının nəticələrinə əsasən 75 gənc müəllim ümumtəhsil məktəblərində ixtisaslarına uyğun olaraq müəllimlik fəaliyyətinə başlamışlar.

Bununla yanaşı, tədrisin keyfiyyətinin artırılması, qabaqcıl təcrübənin öyrənilməsi, müəllimlərin müasir təlim üsulları və informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə Təhsil Nazirliyi tərəfindən fransız dili müəllimləri, psixoloqlar, məktəb kitabxanaçıları, informasiya sistemlərinin əlaqələndiriciləri və digər ixtisas müəllimləri ilə kurikulum seminarları, elmi-praktik konfranslar keçirilib.

Rəhman Məmmədov bildirib ki, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı və yaradılan müasir təhsil şəraiti 2017-2018-ci tədris ilində də uğurlu nəticələrin əldə olunmasına yol açıb. Belə ki, qəbul imtahanlarında məzunlardan 1781-i ali məktəblərə, 615-i isə orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Onlardan 331-i 500-700 arası bal toplayıb, 6 məzun isə Prezident təqaüdünə layiq görülüb.

Qeyd olunub ki, peşə təhsili sahəsində həyata keçirilən tədbirlər nəticəsində Təhsil Nazirliyinin tabeliyindəki ilk peşə-ixtisas təhsili müəssisələrindən 2018-ci il ərzində, ümumilikdə, 18 ixtisas üzrə 125 qrupda 2753 müdavim təhsillərini başa vuraraq müvafiq təhsil sənədi alıblar. Hazırda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən 4 peşə təhsili müəssisələrində 6 ixtisas üzrə 19 qrupda 496 müdavim təhsilini davam etdirir.

Təhsil naziri 2018-ci il ərzində buraxılmış nöqsanlardan, onların aradan qaldırılması istiqamətində həyata keçirilmiş tədbirlərdən və 2019-cu ildə qarşıda duran vəzifələrdən danışıb.

Tədbir məruzə ətrafında müzakirələrlə başa çatıb.

* * *

*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev açaraq məruzə ilə çıxış edib.*



Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında 2018-ci ildə sosial-iqtisadi inkişafın bütün sahələrində olduğu kimi, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi sahəsində də dinamik inkişaf saxlanılıb, dövlət ekoloji siyasəti uğurla davam etdirilib.

Qeyd olunub ki, ötən il ətraf mühitin mühafizəsi sahəsində 36 yoxlama-reyd aparılıb, hüquqi və fiziki şəxslər tərəfindən yol verilmiş qanun pozuntularına görə 24 protokol tərtib olunub.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə, ümumilikdə, muxtar respublika ərazisində 473 hektar sahədə yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib. Bunun da 166,6 hektarı meyvə, tut, badam, ərik, şaftalı, cəviz, alma, 41,7 hektarı üzüm bağları olub. Yaşıllaşdırma tədbirlərində 405 min 230 ədəd meyvə tingi, həmişəyaşıl ağaclar, meşə tingi, bəzək və gül kolları, 2000 kiloqram müxtəlif meyvə toxumları əkilib. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi ərazisində 30 hektar, Şahbuz şəhər təmizləyici qurğular sistemi ətrafındakı ərazilərdə 10 hektar, Meşə fondu torpaqlarında 40 hektar sahədə yabanı meyvə toxumları, əsasən, badamça, həmərsin, yemişan, iydə, alça toxumları ilə əkin aparılıb.

Vurğulanıb ki, 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında – 174,7 muxtar respublikadakı idarə və təşkilatlar tərəfindən 24,5, nazirlik tərəfindən 273,8 hektar sahədə yeni meyvə bağları salınıb, meşəbərpa tədbirləri icra edilib.

Ötən il ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, ətraf mühitin mühafizəsinə insanların diqqətini artırmaq məqsədilə "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq ekoloji maarifləndirmə tədbirləri də diqqətdə saxlanılıb və bu məqsədlə 200-dən çox kütləvi tədbirlər keçirilib, televiziya verilişləri, radio proqramları hazırlanıb.

Sonra nazirliyin əməkdaşları məruzə ətrafında çıxış ediblər.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində ötən ilin yekunlarına həsr olunmuş kollegiya iclasını komitənin sədri Əsgər Əsgərov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında əkinəyararlı torpaq sahələrinin su təminatını yaxşılaşdırmaq, yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etməklə suvarılan sahələrin genişləndirilməsini təmin etmək, həmin sahələrin şoranlaşmasının qarşısını almaq üçün 2018-ci il ərzində komitə tərəfindən meliorasiya və irriqasiya işlərinin miqyası artırılaraq bütün mövcud imkanlar səfərbər edilib, tikinti, təmir-bərpa və istismar işləri həyata keçirilib.

Qeyd olunub ki, muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlarına 195,3 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 258 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla 214 min 338 hektar torpaq sahəsi su ilə təmin olunub. Eyni zamanda muxtar respublikada torpaq sahələrində su təminatının yaxşılaşdırılması, suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su itkisinin qarşısının alınması üçün mühüm tədbirlər həyata keçirilib. Rentabelli suvarma şəbəkələrinin qurulmasına, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilib. Belə ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 616 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Diametri 720 millimetr borularla 2850 metr magistral, diametri 300 millimetr borularla 8300 metr ana, müxtəlif diametrli borularla 61310 metr paylayıcı boru, şəbəkənin suyunun boşaldılması üçün 6300 metr suboşaldıcı xətt çəkilib. Xətt üzərində 7 ədəd kompensator, 11 ədəd siyirtmə, 594 ədəd suvarma hidrantları və supaylayıcı hovuzlar quraşdırılıb. Bununla bərabər, Kəngərli rayonunun Böyükdüz, Qabıllı və Çalxanqala kəndləri ərazisində 50, Şərur rayonunun Danyeri kəndi ərazisində 4, Sədərək rayonunda Dəhnə adlanan ərazidə 8 hektar sahə isə hamarlanaraq əkin üçün yararlı vəziyyətə gətirilib. Kəngərli rayonunun Yurdçu kəndi ərazisində isə 56 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb. Ümumilikdə, il ərzində muxtar respublika ərazisində 87,3 kilometr yeni suvarma boru xətti çəkilib, 21,1 kilometr boru xətti əsaslı təmir olunub.

Komitə sədri diqqətə çatdırıb ki, muxtar respublikanın rayonlarında əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün, ümumilikdə, 13,4 kilometr yeni içməli su xətti çəkilib, 65,2 kilometr içməli su xətti təmir-bərpa olunub. Ordubad rayonunun Dəstə kəndində müxtəlif diametrli borularla 5,4 kilometr yeni içməli su xətti çəkilib, 20 ədəd supaylayıcı hovuz quraşdırılıb. Kəngərli rayonunun Qıvraq qəsəbəsində isə "N" hərbi hissə üçün 1750 metr yeni içməli su xətti çəkilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirəni xidmətin rəisi vəzifəsini icra edən mayor Cavid Məmmədov açıb.*

Bildirilib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyəti əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də muxtar respublika ərazisində qeydiyyatda duran və 16 yaşı tamam olan Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri üzrə ilkin hərbi qeydiyyata alınması, qeydiyyata götürülmüş vətəndaşların çağırışqabağı hazırlıq işlərinin təşkil edilməsi, onlarla sağlamlıq profilaktik tədbirlərin keçirilməsinin təmin edilməsi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətlə komplektləşdirilməsi məqsədilə sağlam gənclərin yetişdirilməsindən ibarət olub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq ötən ilin aprel, may və noyabr aylarında Naxçıvan Dövlət Universitetinin Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının III-IV kurs tələbələri ilə elmi-nəzəri konfrans keçirilib. Bununla yanaşı, Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində muxtar respublikanın ümumtəhsil məktəblərinin gənclərin çağırışaqədərki hazırlığı rəhbərləri ilə toplantı təşkil olunub.

Vurğulanıb ki, 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrini peşəkar, təcrübəli, savadlı kadrlarla komplektləşdirmək məqsədilə ehtiyata tərxis olunmuş hərbi vəzifəlilərdən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən hərbi xidmətə cəlb edilməsi üçün müəyyən edilmiş tədbirlər də həyata keçirilib. Ötən ildə ehtiyata tərxis olunan hərbi vəzifəlilərdən yenidən hərbi xidmət keçmək üçün müxtəlif hərbi hissələrə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 520 nəfər namizəd seçilərək göndərilib ki, bunlardan da 51-i qadındır.

Cavid Məmmədov işdə yol verilmiş nöqsanlara da toxunub, qarşıda duran vəzifələrdən bəhs edib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən iclasda komitənin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, 2018-ci ildə komitə tərəfindən muxtar respublikada ailə, qadın və uşaqların hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılıb, müxtəlif tədbirlər keçirilib, ailə, qadın və uşaqlar haqqında statistik məlumatlar toplanılıb, müqayisəli təhlili aparılıb, məlumat bazası yenilənib.

Qeyd olunub ki, muxtar respublikada yaşayan aztəminatlı və əlil ailənin üzvü olan 72 qadının peşə kurslarına, 38-nin isə işlə təmin olunması üçün müvafiq məlumatları aidiyyəti təşkilatlara göndərilib. Komitə tərəfindən 9 aztəminatlı ailəyə baş çəkilib, ailə üzvləri tibbi müayinədən keçirilib, ehtiyaclarına uyğun köməklik göstərilib. Əlamətdar günlərlə əlaqədar silsilə tədbirlər də keçirilib.

Muxtar respublikanın ictimai-mədəni və sosial həyatında fəal iştirak edən 1 qadının yubileyi qeyd edilib, hesabat dövründə keçirilən müsabiqələrdə 32 nəfərə, o cümlədən 21 qadına diplom, hədiyyə və pul mükafatı verilib.

Vurğulanıb ki, milli və xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən qadınların əl işləri mağazasında 55 qadının 128 əl işi, "Milli geyimlər" festivalında 23 qadının 72 əl işi, məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda 158 şəxsin 681 rəsm və əl işi satılıb. Həmçinin istedadlı qadınların toxuduqları 146 yun geyimlər 63 aztəminatlı ailələrdən olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara hədiyyə olunub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar monitorinqlər keçirilib. Muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 5194 uşaq haqqında fərdi məlumatlar daxil edilərək uşaqların sayı 16 min 956 nəfərə çatdırılıb.

Komitə sədri bildirib ki, hesabat dövründə övladlığa götürülmüş 18, qəyyumluğa və himayəyə verilmiş 12 uşağın uçotu aparılıb. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülüb, 74 uşaq müəssisəsində monitorinq, 3 tam orta məktəbdə müvafiq uşaqlarla bağlı görüş keçirilib, 85 uşaq məktəbəqədər, məktəb, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilib. Aztəminatlı ailələrdən olan 45 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahəti təmin edilib, 70 uşağa məktəbli paltarları və dərs ləvazimatları, mövsümlə əlaqədar olaraq qış geyimi verilib.

Ramilə Seyidova deyib ki, 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində bayram tədbirləri keçirilib, 1 uşaq Bakı şəhərində keçirilən "İstedadlı uşaqlar" festivalında muxtar respublikanı rəsm sərgisində təmsil edib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə olunub



Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən iclası giriş sözü ilə açan direktor Mənşur Gülməmmədli bildirib ki, 2018-ci il ərzində hava limanında bir sıra layihələr həyata keçirilib. Bu layihələr hava nəqliyyatı sektorunun bütün sahələrini əhatə edib. Belə ki, köhnə asfalt örtüklü uçuş-enmə zolağının yenidən qurulması və tikinti işlərinə başlanılıb. 0 №-li təyyarə dayanacağının və sürmə yolunun yenidən qurulması işləri yekunlaşdırılaraq ötən ilin ikinci yarısında istismara verilib. Bu, ağırtutumlu təyyarələrin hər cür manevrlə dayanacaqda qarşılanıb yola salınmasına imkan verib. Yanğından mühafizə komandasının binasında aparılan yenidənqurma işləri və inşa edilən müşahidə qülləsi uçuşların təhlükəsizliyinin tam təmin olunmasına yönləndirilib.

Vurğulanıb ki, hava limanının maddi-texniki bazasının gücləndirilməsi, aerovağzalın fəaliyyətinin müasir səviyyəyə çatdırılması istiqamətində görülən işlər ardıcıl və sistemli xarakter alıb. Aerovağzal kompleksinə 2 yeni ehtiyat TRANE markalı hava soyutmalı ÇİLLER avadanlığı alınıb quraşdırılıb. Hava gəmilərinə texniki xidmət sahəsinin maddi-texniki bazası möhkəmləndirilib, müxtəliftipli təyyarələr üçün qoşqular, şassi dəyişdirilməsi üçün hidravlik qaldırıcı, azot xidməti arabası kimi texniki avadanlıqlar alınaraq istismara verilib.

Diqqətə çatdırılıb ki, hava gəmilərinə xidmətin səviyyəsinin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində xüsusi avtonəqliyyat xidmətinə ən müasir və modern maşın-mexanizmlərinin alınması prosesi 2018-ci ildə də davam etdirilib. Ümumilikdə, 12 xüsusi təyinatlı nəqliyyat vasitəsi alınıb istifadəyə verilib.

Aviasiya və uçuşların təhlükəsizliyinin təmin olunması istiqamətində ayrı-ayrı xidmət sahələrinin də maddi-texniki bazası möhkəmləndirilib. Təhlükəsizlik tədbirləri çərçivəsində aerovağzal kompleksi binasının giriş-çıxış bölümünə müasir tələblərə cavab verən "üztanıma" videokameraları quraşdırılıb. Hava limanı ərazisində yerləşən inzibati və yardımçı binalarda xidməti yanğın siqnal sistemi modern və ağıllı sistem ilə əvəz edilərək tam yenidən qurulub. Xidmətlərarası radioəlaqənin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə 67 ədəd motorollatipli yeni radiostansiya alınaraq texniki istismar qaydalarına uyğun xidmətlərə təhvil verilib.

Sonra görülmüş işlərlə bağlı hava limanının xidmət rəislərinin hesabatları dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası arxiv orqanlarının 2018-ci ildə gördükləri işlərin yekunları ilə bağlı keçirilən kollegiya iclasında Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov çıxış edərək bildirib ki, ötən il arxiv işinin günün tələbləri səviyyəsində qurulması istiqamətində bir sıra tədbirlər görülüb, peşə biliklərinin, o cümlədən nəzəri və praktik bacarıqlarının artırılması məqsədilə rayon dövlət arxivlərinin müdirləri üçün seminarlar keçirilib, rayon dövlət arxivləri əməkdaşlarına metodik köməklik göstərilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin 2018-ci il illik iş planında kağız sənədlər 6 min 120 vərəqə bərpa olunaraq illik plan 102 faiz yerinə yetirilib. Həmçinin bərpaya ehtiyacı olan 250 fotoşəkil bərpa edilərək qutulara yığılıb. Sənədlərin tikilməsi və cildlənməsi sahəsi üzrə illik plan 103 faiz yerinə yetirilib. Bununla yanaşı, 8 min 500 saxlama vahidi karton qutulara yığılaraq illik plana 170 faiz əməl olunub. Kağız əsaslı sənədlərin mövcudluğu və vəziyyətinin yoxlanılması maddəsi üzrə 177 min 60 saxlama vahidinin, 15 min fotosənədin və 720 kinolentin mövcudluğu yoxlanılıb və yoxlamaya dair müvafiq aktlar tərtib edilib. 21 min vərəqə elektron daşıyıcılara köçürülüb. 761 tematik kart tərtib edilərək, illik plan 127 faiz yerinə yetirilib.

İdarə rəisi bildirib ki, hesabat ilində elmi-tədqiqat işlərində də arxiv sənədlərindən istifadə olunub, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə müraciət edən 1 tədqiqatçıya işləməsi üçün lazımi şərait yaradılıb, kitabxanaya daxil olmuş 106 kitab qeydiyyata alınıb, dövri mətbuat sistemləşdirilib, kütləvi informasiya vasitələri ilə əməkdaşlıq davam etdirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən iclasda 2018-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr barədə institutun rektoru, dosent Elbrus İsayev məruzə ilə çıxış edib. O bildirib ki, ötən il Prezident cənab İlham Əliyevin muxtar respublikaya növbəti səfəri çərçivəsində Naxçıvan Müəllimlər İnstitutunun açılışında da iştirak etməsi pedaqoji kollektiv üçün əlamətdar olub.

Naxçıvan Muxtar Respublikasında bakalavr səviyyəsində ibtidai sinif müəllimliyi, məktəbəqədər təlim və tərbiyə, təhsildə sosial-psixoloji xidmət ixtisasları, magistratura səviyyəsində isə yuxarıda göstərilən üç ixtisas üzrə kadr hazırlığı yalnız bu ali məktəbdə aparılır. İnstitut muxtar respublikadakı 3 ali məktəb arasında əlavə təhsilin bütün istiqamətləri üzrə fəaliyyət göstərən yeganə ali təhsil müəssisəsidir. Burada hazırda bakalavr səviyyəsi üzrə əyani şöbədə 1099, qiyabi şöbədə 81, ümumilikdə, 1180 tələbə, magistratura səviyyəsində 58 tələbə təhsil alır. Onların təhsili ilə 94 nəfər professor-müəllim heyəti məşğul olur. Onlardan 7-si elmlər doktoru, 40-ı isə fəlsəfə doktorudur. Hesabat ili ərzində institut əməkdaşlarının 223 elmi əsəri, o cümlədən 3 monoqrafiyası, 3 dərs vəsaiti, 51 metodik vəsaiti və fənn proqramı, 133 elmi-metodik məqaləsi və 33 tezisi çap olunub.

Qeyd edilib ki, Naxçıvan Müəllimlər İnstitutunda İxtisasartırma və yenidənhazırlanma sahəsində işin səmərəliliyini yüksəltmək məqsədilə 2018-2019-cu tədris ilinin əvvəlində ixtisasartırma sahəsi üzrə tədris-təqvim planı hazırlanıb, elmi şurada müzakirə edilərək əmrləşdirilib. Bu plana əsasən 2018-ci ilin ikinci yarımili, 2019-cu ilin isə birinci yarımili üçün ayrı-ayrı strukturlar qarşısında vəzifələr kompleksi müəyyənləşdirilib. İxtisasartırma təhsilinin plan və proqramlarının yenidən nəzərdən keçirilməsi, müəllimlərin yeni təlim metodları ilə işləmələri qarşıya məqsəd qoyulub. Tədris ili üçün təqvim planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və səmərəli yerinə yetirilməsi, institutdan və ayrı-ayrı elm və təhsil müəssisələrindən mühazirəçilərin seçilməsi məsələsində onların peşəkarlığına diqqətin artırılması, ixtisasartırma təhsilinin optimal dislokasiyasının və keçirilməsinin mütəşəkkil təşkil edilməsi məsələləri geniş müzakirə olunub.

Bildirilib ki, 2018-ci ildə institutun yeni tədris korpusuna köçməsi ilə əlaqədar olaraq hər cür texniki və elektronik avadanlıqlarla təchiz edilmiş müasirtipli kitabxana yaradılıb. Hazırda 6158-i latın qrafikası ilə nəşr olunmuş 8576 kitab fonduna malik kitabxana son illərdə çıxan tədris-metodik, elmi, monoqrafik xarakterli ədəbiyyatlarla zənginləşdirilməkdə və kitabxananın kataloq sistemi elektronlaşdırılmaqdadır. Burada 3500 adda dərslik, dərs vəsaiti və mühazirə materiallarının elektron versiyası hazırlanıb.

Rektor qarşıda duran vəzifələrdən də danışıb.

Sonda məruzə ətrafında çıxışlar olub.

***Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə 2018-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə olunub.***



Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov məruzə edərək bildirib ki, Şərur rayonunda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, yeni istehsal sahələrinin və iş yerlərinin açılması, müasir infrastrukturların yaradılması 2018-ci ildə də davam etdirilib. Ötən il may ayının 16-da ölkə Prezidentinin Şərur şəhərinin və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin birinci mərhələsinin açılışında iştirakı, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü, muxtar respublikamızda görülən işləri yüksək qiymətləndirməsi rayonun sosial-iqtisadi inkişafına yeni stimul verib.

Qeyd olunub ki, Şərur rayonunda 2018-ci ildə də tikinti-quruculuq işləri geniş vüsət alıb, yeni sosial obyektlərin inşası, yaxud yenidən qurulması diqqət mərkəzində saxlanılıb. Ərəbyengicə, İbadulla və Kosacan kəndlərində orta məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları, Ələkli kəndində asfalt-beton zavodu, İbadulla kəndində radio-televiziya ötürücü stansiyası üçün inzibati bina tikilib. Şərur şəhərini və ətraf kəndləri əhatə edən içməli su şəbəkəsinin və kanalizasiya sisteminin ikinci hissəsi istismara verilib. Yengicə kəndindəki Şərq hamamı bərpa olunub, Şərur şəhərinin Heydər Əliyev prospektindəki 60 mənzilli və Kapitan Seyidov küçəsindəki 40 mənzilli yaşayış binalarının əsaslı təmiri başa çatdırılıb, "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki servis mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni bina inşa olunub.

Vurğulanıb ki, ötən ilin sonlarında Şərur rayonunda sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə və 1 hərbi xidmət dövrü əlilinə mənzillər təqdim olunub, 1 Çernobıl əlilinə isə "NAZ-Lifan 320" markalı minik avtomobili verilib.

Bildirilib ki, rayonda aqrar sahənin davamlı inkişafı təmin olunub, 17 min 115 hektar sahədə əkin aparılıb, 130 milyon 798 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib. 2019-cu ilin məhsulu üçün ötən ilin payızında 4 min 13 hektar sahədə taxıl əkini həyata keçirilib.

Qeyd olunub ki, imeciliklər yolu ilə rayonda 15,6 hektar sahədə yeni meyvə bağı salınıb, 26 hektar meyvə bağında bərpa işləri aparılıb. Rayonda 2018-ci ilin yazında və payızında rayonda 6 hektar yeni üzüm bağı salınıb. 11,8 hektar sahədə tütün yetişdirilib, 7 min 230 kiloqram quru tütün istehsal olunub.

Şərurda arıçılıq təsərrüfatlarının davamlı inkişaf etdirilməsi nəticəsində hazırda rayondakı 443 təsərrüfatda 8 min 409 arı ailəsi vardır.

Diqqətə çatdırılıb ki, rayonda sənaye sahəsinin inkişafı istiqamətində də işlər davam etdirilib, 2018-ci ildə 86 milyon manatlıq, yaxud 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çox sənaye məhsulu istehsalı qeydə alınıb.

Vurğulanıb ki, hesabat dövrü Şərurun mədəniyyət kollektivləri üçün əlamətdar olub, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Bu sahədə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 24 dekabr tarixli Sərəncamı ilə "Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib.

Sonra məruzə ətrafında müzakirələr olub.

**Xəbərlər şöbəsi**

# Futbol Federasiyası ili uğurla başa vurub

*Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasında 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı yığıncaq olub.*

Yığıncağı giriş sözü ilə açan Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev gündəlikdə duran məsələlərlə bağlı məlumat verib.

Sonra federasiyanın sədr müavini Hafiz Əliyev 2018-ci ildə görülən işlər və keçirilən yarışlar barədə danışıb.

Yığıncaqda çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov müşavirədə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarına verilən tapşırıqlardan bəhs edib.

Bildirilib ki, muxtar respublikamızda futbol idman növü ilə 5242 idmançı 296 qrupda məşğuldur. Gənclər və İdman Nazirliyi muxtar respublikamızda 2002-ci ildə yaradılan



Futbol Federasiyası ilə birgə idmanın bu növünü inkişaf etdirmək məqsədilə çoxsaylı tədbirlər həyata keçirib. 2018-ci il 12-16 iyun tarixlərdə Naxçıvan Muxtar Respublika Stadionunda ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnirdə doğma diyarımızı təmsil edən "Araz-Naxçıvan" komandası da uğurlu nəticə göstərərək yarışın mükafatçıları sırasına düşüb.

Azad Cabbarov həyata keçirilən tədbirlərin nazirlik və Futbol Federasiyasının birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olduğunu qeyd edib, bu növün inkişafı istiqamətində daha böyük uğurlara imza atılacağına əminliyini bildirib.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev çıxışında vurğulayıb ki, federasiya hesabat ili üçün tərtib etdiyi tədbirlər və təqvim planını Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdıraraq təsdiq edir. O deyib ki, müşavirədə federasiyanın qarşısına qoyulan vəzifə və tapşırıqların yerinə yetirilməsində əsaslı dönüş yaradılmalıdır. 2019-cu ildə Futbol Federasiyasının kuboku, 15-16 yaşlı futbolçuların muxtar respublika birinciliyi, yerlərdə şəhər və rayon birinciliklərinin, futzal üzrə muxtar respublika kubokу yarışlarının keçirilməsi nəzərdə tutulub.

Səbuhi Şahverdiyev bildirib ki, artıq muxtar respublikanın 5 rayonunda federasiyanın bölmələri fəaliyyət göstərir. Tezliklə bunların sırasına Naxçıvan şəhəri, Şərur və Babək rayonları da əlavə olunacaqdır. Federasiya bölmələrini fəaliyyətinin səmərəli təşkili üçün yerli şəhər və rayon İcra hakimiyyətləri ilə sıx əlaqə yaradılmalıdır. Naxçıvan Muxtar Respublikasında mövcud olan bütün stadion və futbol meydançalarından səmərəli istifadə olunması, yeni stadionların qurulması və onların bərpa edilməsi daim diqqət mərkəzində olmalıdır.

Sonda federasiya sədri qeyd edib ki, Ali Məclis Sədrinin qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün mövcud olan bütün imkanlardan səmərəli istifadə edilməlidir.

Sonra Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının il ərzində fərqlənən idmançıları mükafatlandırılıblar.

Yığıncağa yekun vuran Futbol Federasiyasının sədri məşqçi və idmançılar adından yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

**Ceyhun MƏMMƏDOV**

*2018-ci il Naxçıvan Muxtar Respublikasının idman həyatında bir çox əlamətdar hadisələrlə yadda qalıb. Ölkəmizin Gənclər Paytaxtı seçilən Naxçıvanımızda muxtar respublikanın Gənclər və İdman Nazirliyi idmanın inkişafı və kütləviliyinin təmin olunması məqsədilə yarışların, turnirlərin təşkili yolu ilə uşaqları, yeniyetmələri və gəncləri bu sahəyə cəlb edib. Eyni zamanda muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları ilə birlikdə nazirlik ölkə miqyaslı yarışlarda, həmçinin beynəlxalq turnirlərdə də yeni-yeni nailiyyətlər qazanılmasında müstəsna rol oynayıb. İdmançılarımız geridə qoyduğumuz il ərzində olimpiya və qeyri-olimpiya idman növləri üzrə Azərbaycan çempionatlarında, rəsmi beynəlxalq yarışlarda – dünya və Avropa çempionatlarında uğur qazanmaqla Naxçıvanda idmanın sürətli inkişafını bir daha sübut ediblər. Məşqçi-müəllimlər və idmançılar üçün təşkil edilən təlim-məşq toplanışları isə onların təcrübə qazanmasında müstəsna rol oynayıb. 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə isə idmanın inkişafında yol verilən nöqsanları üzə çıxarıb qarşıda duran vəzifələri müəyyənləşdirməklə bu sahədə yeni mərhələnin əsasını qoyub.*



# Uğura aparan yolun səbəbi:

## *məqsədyönlü idman siyasəti, idmana və idmançılara qayğı*

### *Muxtar respublikada keçirilən beynəlxalq turnirlər*

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən və artıq ənənə halını alan "Naxçıvan – 2018" Beynəlxalq Şahmat Festivalı ötən il də keçirilib. 1-10 may tarixlərdə Naxçıvan Şahmat Mərkəzində keçirilən festivalda 15 ölkənin – Ukrayna, Belarus, İsrail, Hollandiya, Almaniya, İspaniya, İran, Belçika, Yunanıstan, Türkiyə, Rusiya, Gürcüstan, Portuqaliya, Qazaxıstan və Azərbaycanın şahmatçıları ağ-qara taxtada mübarizə aparıblar. Qeyd edək ki, bu şahmat bayramında 23 beynəlxalq qrossmeyster, 16 beynəlxalq usta, 14 FİDE ustası, ümumilikdə, 300-dən çox zəka sahibi A, B və C qruplarında yarışıblar.





Elə həmin ay Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksi daha bir beynəlxalq turnirə ev sahibliyi edib. Bu dəfə cüdo üzrə idmançılar ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş beynəlxalq turnirdə bir araya gəliblər. Turnirdə Gürcüstan, Türkiyə və Rusiya komandaları, eləcə də ölkəmizin Bakı, Sumqayıt, Gəncə, Qəbələ, Naxçıvan və Culfa komandaları mübarizəyə qoşulublar. Olimpiya sistemi üzrə təşkil edilən beynəlxalq turnirin final görüşündə Naxçıvan Muxtar Respublikasının komandası gürcüstanlı rəqiblərini məğlub edərək qızıl medala layiq görülüb.

Daha bir mötəbər turnirdə isə kikboksinqçilər rinqə çıxıblar. Öz möhtəşəmliyi ilə seçilən turnirdə Türkiyə, Rusiya, Belarus, Ukrayna, Gürcüstan və Azərbaycan idmançıları ilə yanaşı, Naxçıvan kikboksinqçiləri də mübarizə aparıblar.

Ənənəvi olaraq keçirilən futbol üzrə "Heydər Əliyev kuboku" turnirində isə muxtar respublikamızı təmsil edən "Araz-Naxçıvan" futbol komandası gümüş medal qazanıb.

Ulu öndərin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş digər yarışlar da yaddaqalan olub. Bu münasibətlə müxtəlif idman növləri üzrə beynəlxalq turnirlərə ev sahibliyi edən Naxçıvanda həm də yerli federasiyalar nazirliklə birgə yarışlar, tədbirlər təşkil ediblər. İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən boks üzrə muxtar respublika birinciliyində 100-dən çox dəri əlcək sahibi rinqə çıxmaqla kimin güclü olduğuna aydınlıq gətirib.

Duzdağ Fizioterapiya Mərkəzi yolunda ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında kross qaçışında isə 200-ə yaxın idmançı iştirak edib. İndividual idman növlərindən olan sərbəst güləş, kikboksinq, velosiped yarışı, süni divaradırmanma üzrə muxtar respublika turnirləri də öz gərginlikləri ilə yaddaqalan olub.

Muxtar respublika gənclərinin "Qurtuluşdan Əlincəqalaya" devizi altında yürüşü və karate-do üzrə Naxçıvan Muxtar Respublikası açıq çempionatı təşkil olunub.

Kollektiv idman növlərindən olan voleybol, basketbol, futbol və peyntbol üzrə muxtar respublika birinciliklərində yüzlərlə gəncin iştirakı bu idman növlərinin geniş yayıldığını bir daha nümayiş etdirib.

### *Beynəlxalq Tələbə-Gənclər Həftəsi və əlamətdar günlərlə bağlı silsilə tədbirlər keçirilib*

10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən bir sıra yarışlar da ötən ilin uğurlu idman tədbirlərindən olub. 2018-ci ildə tələbələr arasında stolüstü tennis, badminton, voleybol, kross qaçışı üzrə muxtar respublika birincilikləri keçirilib, Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə qızlardan ibarət Naxçıvan şəhər, Ordubad və Şərur rayon komandaları arasında karate-do üzrə yoldaşlıq görüşü təşkil edilib.

Geridə qoyduğumuz il daha bir məqamla yaddaşlara həkk olunub. Belə ki, nazirlik və federasiyalar ölkəmizin əlamətdar günləri ilə əlaqədar bir sıra yarışlar, turnirlər təşkil ediblər. Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar peyntbol və kikboksinq üzrə muxtar respublika birincilikləri, basketbol üzrə Culfa rayon və Naxçıvan şəhər "Lokomotiv" komandaları, voleybol üzrə Naxçıvan şəhər və Şahbuz rayon komandaları arasında yoldaşlıq görüşü, yeniyetmələr (2005-2006-cı illər) arasında sərbəst güləş üzrə şəhər birinciliyi, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən nazirlik, komitə, xidmət, idarə və müəssisələrin əməkdaşları arasında şahmat üzrə birincilik keçirilib.

5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ekstremal yürüş, qadınlar arasında atıcılığın stend növü, cüdo, paralimpiyaçılar arasında voleybol, yeniyetmələr (2001-2002-ci illər) arasında yüngül atletika üzrə muxtar respublika, eləcə də şahmat, yeniyetmə və gənclər arasında boks üzrə şəhər birinciliklərində 400-dən çox idmançı qələbə uğrunda mübarizə aparıb.

Eyni zamanda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən yeniyetmə və gənclər arasında boks, cüdo, sambo idman növləri üzrə Naxçıvan şəhər açıq birincilikləri, yeniyetmələr arasında (2006-2008-ci illər) sərbəst güləş üzrə şəhər, qol güləşi idman növü üzrə muxtar respublika birincilikləri ilin yaddaqalan idman hadisələri olub.

Ötən il İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş yeniyetmə və gənclər arasında boks üzrə muxtar respublika birinciliyi, oğlan və qızlardan ibarət yeniyetmə və gənclər arasında Əshabi-Kəhf ziyarətgahına yürüş, yeniyetmələr (2006-2008-ci illər) arasında cüdo üzrə şəhər birinciliyi, 18 Oktyabr – Dövlət Müstəqilliyi Günü ilə əlaqədar yeniyetmə və gənclər arasında boks üzrə şəhər, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ekstremal yürüş üzrə muxtar respublika birincilikləri, 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və Şərur şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin şagirdləri arasında speleo (mağara) turizm yürüşü üzrə muxtar respublika birincilikləri təşkil olunub.

Ümumilikdə, 2018-ci ildə keçirilən kollektiv idman növlərində 2000-ə yaxın idmançı iştirak edib.

### *Digər tədbirlər*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ötən il ərzində əlamətdar günlərin qeyd edilməsi, gənclərin dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi, asudə vaxtlarının səmərəli təşkili, yeniyetmə və gənclər arasında idmanın kütləviliyinə nail olunması, sağlam ruhda böyümələri istiqamətində idman federasiyaları və digər idman qurumları ilə birgə 330 tədbir keçirib. Federasiyalarda aparılan struktur dəyişiklikləri onların fəaliyyətlərinin gücləndirilməsinə, idmanın müxtəlif sahələrinin inkişafına, gənc, istedadlı idmançıların federasiyalara cəlb olunmasına təkan verib. 2018-ci ildə Naxçıvanda daha hansı idman hadisələri gündəmdə olub? Qısa xülasə:

– Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən muxtar respublikanın Gənclər və İdman Nazirliyi tərəfindən Kəngərli və Culfa Rayon Mərkəzi stadionları yenidən qurularaq istifadəyə verilib;

– Yeni yaradılan Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası yığma komandasının tərkibinin formalaşdırılması məqsədilə muxtar respublika birinciliyi təşkil edib, futbol üzrə XVII muxtar respublika çempionatına start verilib;

– Məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə Üzgüçülük Mərkəzində qızlar arasında üzgüçülük üzrə şəhər, Naxçıvan Şahmat Mərkəzində isə şahmat üzrə mərkəzin təsnifat birincilikləri keçirilib;

– İdman federasiyalarının üzvlərinin Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" təşkil edilib, avqust ayının hər şənbə günü gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq futbol üzrə rayon, şəhər birincilikləri təşkil edilib;

– Məşqçilərə təlimlər, treninqlər, gənc idmançılara nümunəvi dərslərin keçilməsi diqqətdə saxlanılıb, bütün idman növləri və federasiyalar üzrə peşəkar və təcrübəli məşqçilər muxtar respublikaya dəvət edilib, komandaların təlim-məşq toplanışları olub;

– Naxçıvan Muxtar Respublikasında fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası, sağlamlıqlarının bərpası sahəsində paralimpiyaçılar arasında armrestlinq (qol güləşi), yüngül atletika (qaçış), pauerliftinq, 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında stolüstü tennis, 3 Dekabr – Beynəlxalq Əlillər Gününə həsr olunmuş 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında şahmat üzrə muxtar respublika birincilikləri, İlham Əliyev adına Olimpiya-İdman Kompleksində sağlamlıq imkanları məhdud şəxslər arasında voleybol üzrə Culfa və Şahbuz rayon komandaları arasında yoldaşlıq görüşü, 18 yaşadək sağlamlıq imkanları məhdud oğlanlar və qızlar arasında üzgüçülük üzrə şəhər birinciliyi, 13 Noyabr – Beynəlxalq Gözdən Əlillər Gününə həsr olunmuş qolbol üzrə yoldaşlıq görüşü təşkil olunub.

### *Ölkədaxili və beynəlxalq turnirlərdə qazanılan uğurlar*

Ötən il istər ölkədaxili yarışlarda, istərsə də beynəlxalq turnirlərdə idmançılarımızın əldə etdikləri qələbələr muxtar respublikada idmanın inkişafı ilə yanaşı, eyni zamanda idmana göstərilən diqqət və qayğının bariz nümunəsidir.

İlk olaraq ölkədaxili yarışlarda uğur qazanan idmançılarımız barədə. Ötən il karate-do, boks, şahmat, güləş, cüdo, kikboksinq, bədii gimnastika, ağır atletika, yüngül atletika, MMA, uşu-sando üzrə Azərbaycan birincilikləri və ölkə miqyaslı yarışlarda, eyni zamanda pankration, qrappling və kempo üzrə keçirilən Bakı çempionatlarında qazanılan uğurlar fərdi idman növlərinin geniş vüsət almasından xəbər verir.

Kollektiv idman növlərində də idmançılarımız yaddaqalan çıxışları ilə 2018-ci ilə uğurla yekun vurublar. Belə ki, il ərzində Xaçmaz rayonunda keçirilən "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final mərhələsində iştirak edən komandamız qalib adını qazanıb. Naxçıvan Şahmat Mərkəzində isə internet üzərindən şahmat üzrə Naxçıvan komandası ilə Qırğızıstan Respublikasının Talas şəhərinin komandası və Şimali Amerikanın "Bermuda" komandası arasında yoldaşlıq görüşləri olub.

Beynəlxalq yarışlarda isə Naxçıvan idmançıları daha böyük uğurlara imza atıblar. Belə ki, sərbəst güləş komandamız İran İslam Respublikasının Miyanduab, cüdoçularımız isə Dağıstan Respublikasının Dərbənd, Türkiyə Cümhuriyyətinin Samsun şəhərlərində keçirilən beynəlxalq turnirlərdə mükafat qazanıblar.

Karateçilərimiz Rusiyanın Moskva, Lipeçk, Sankt-Peterburq, Omsk, İran İslam Respublikasının Astara, Urmiya, Türkiyə Cümhuriyyətinin İstanbul, boksçularımız İran İslam Respublikasının Miyanduab və Bukan, Rumıniyanın Tirqu-Jin, şahmatçılarımız isə Türkiyə Cümhuriyyətində, Gürcüstanda keçirilən turnirlərdə və Avropa çempionatlarında muxtar respublikanın idman ənənələrini layiqincə qoruyublar.



Ağır atletimiz Tərmenxan Babayev İtaliyanın Milan şəhərində keçirilən 15 və 17 yaşa qədər yeniyetmə oğlan və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyində qızıl medal qazanıb. Eyni zamanda atletimiz Argentinanın Buenos-Ayres şəhərində keçirilən yeniyetmələrin III Yay Olimpiya Oyunlarında gümüş medal əldə edib.

*Ümumilikdə, 2018-ci ili Naxçıvan idmanı üçün uğurlu il hesab etmək olar. Belə ki, muxtar respublika idmançıları il ərzində dünya çempionatlarında 2, Avropa çempionatlarında 3, Yeniyetmələrin III Yay Olimpiadasında 1, beynəlxalq turnirlərdə 84, Azərbaycan birinciliklərində isə 105 medal qazanıblar.*

**Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 26